“Balakən Azərbaycanın çox gözəl guşəsidir” İlham ƏLİYEV




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 1 (01) ✦ 29 may 2024-cü il





# Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.



**Azad Balayev**
*Yeni Azərbaycan Partiyası Balakən Rayon Təşkilatının Sədri*

## 1941-1945-Cİ İLLƏRDƏ İKİNCİ DÜNYA MÜHARİBƏSİ İŞTİRAKÇILARINA BİRDƏFƏLİK YARDIM HAQQINDA

# Azərbaycan Prezidenti İlham Əliyevin SƏRƏNCAMI



Azərbaycan Prezidenti İlham Əliyev 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında sərəncam imzalayıb.

Dövət başçısının imzaladığı sənəddə qeyd edilib ki, 1941-1945-ci illər İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2 min manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına min manat məbləğində birdəfəlik maddi yardım verilsin.

Sərəncamın icrası üçün Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3 milyon manat vəsait ayrılacaq.

# Tarixin dərinliklərindən süzülüb gəlmiş Azərbaycan

Hər birimizin qürur mənbəyi, o dövr üçün öz mütərəqqi ideyalarına görə bir çox inkişaf etmiş Avropa ölkələrinə belə örnək ola bilən, müsəlman şərqində ilk dünyəvi dövlət, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması günüdür.

106 il bundan əvvəl Zaqafqaziya seymi dağıldıqdan sonra, seymin müsəlman fraksiyasının üzvləri olan vətənpərvər ziyalılarımız tərəfindən çətin şəraitdə istiqlal bəyannaməsi elan olundu. Mərkəzi Gəncə şəhəri olmaqla, 114000 $km^2$ ərazidə Azərbaycan Demokratik Respublikası dünyanın 22 ölkəsi tərəfindən tanındı. Ancaq ölkənin ürəyi hesab olunan Bakı erməni-bolşevik qüvvələrinin işğalı altında idi. Nuru paşanın komandanlığı ilə Qafqaz islam ordusunun qüvvələrinin Gəncədən başlayan döyüş yolu, sentyabrın 15-də Bakının azad olunması və paytaxt elan olunması ilə nəticələndi. Cümhuriyyət qurucularını və bu yolda həyatlarını qurban vermiş cəmi şəhidlərimizi dərin minnətdarlıq hissi ilə yad edir, Allahdan rəhmət diləyirəm.

Ancaq tarix ondan ötəridir ki, ondan doğru nəticə çıxarasan. AXC-i cəmi 23 ay yaşadı və qısa zaman kəsiyində dövlət atributlarını bərpa etməklə, bir çox islahatların həyata keçirilməsinə nail oldular. Ancaq belə bir qısa zamanda 4 hökumət dəyişdi. Hər yeni formalaşan hökumətə isə, işə başlamamış hərtərəfli maneələr yaradılır və istefası tələb olunurdu. 23 ayda 4 hökumət.

Tarix təkrar olunur.

Ötən əsrin sonlarında, 1988-ci ildən başlayaraq 1993-cü ilə qədər Azərbaycanda 5 siyasi hakimiyyət dəyişdi. Təxminən ilə bir hakimiyyət. Olduqca ziddiyətli dövrlər yaşadıq. Dağlıq Qarabağ münaqişəsi, torpaqların işğalı, separatizm, dövlət çevrilişlərinə cəhdlər. Ölkədə bir balaca sosial gərginlik yarananda dövlət Başçılarının canlarını götürüb qaçmaları, vətəndaş müharibəsi və sairə. Əgər 1993-cü ildə xalqın tələbi ilə ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəlməsəydi və dövləti hissə- hissə bərpa etməsəydi, böyük ehtimalla müstəqil Azərbaycanın taleyi öz xələfinin taleyini yaşayacaqdı. Ötən illərin təhlilləri göstərir ki, 106 il əvvəl olduğu kimi, hələ də xaricdə və daxildə, Azərbaycanın müstəqil, güclü olmasını arzulamayan, ildə bir dəfə hakimiyyəti dəyişərək marionet halına salmaq istəyən kifayət qədər qüvvələr mövcuddur. Biz vahid xalq olaraq, hər zaman dağıdıcı qüvvələrin qarşısında olmalı, dövlətimizin, onun müstəqilliyinin möhkəmlənməsi üçün, artıq özünü dünya azərbaycanlılarının Lideri kimi təsdiq etmiş Prezident İlham Əliyevin ətrafında sıx birləşməliyik.

Əziz soydaşlar!

Bu gözəl bayram münasibətilə bütün həmvətənlərimizi, harada yaşamaqlarından asılı olmayaraq, müstəqil Azərbaycanı özlərinə vətən hesab edən dünya azərbaycanlılarını təbrik edir, hər birinizə hörmətimi ifadə edərək ölkəmizin daha da güclənməsi naminə milli həmrəylik arzu edirəm.

Yaşasın müstəqil Azərbaycan!



**Nəsib Məhəməliyev**
*Azərbaycan Respublikası Milli Məclisinin Deputatı*



# Balakəndə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü qeyd olunub

Mayın 10-da Balakən rayonunda görkəmli siyasi xadim, dahi şəxsiyyət, müasir Azərbaycan dövlətinin xilaskarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101 illiyinə həsr edilmiş silsilə tədbirlər keçirilib. Əvvəlcə Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev, RİH-nin əməkdaşları, Yeni Azərbaycan Partiyasının fəalları, rayon hüquq-





mühafizə orqanlarının və idarə, müəssisələrin rəhbərləri, kollektivləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri Ulu Öndərin abidəsini ziyarət edib, önünə tər güllər qoyaraq xatirəsini dərin ehtiramla yad ediblər.

Müstəqil Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü çərçivəsində Balakən Rayon İcra Hakimiyyəti və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə ağacəkmə aksiyası keçirilib. Aksiyada həmişəyaşıl şam ağacı əkilib, ərazidə olan bitkilərə qulluq göstərilib, yaşıllıq zonasında təmizlik işləri aparılıb.

Daha sonra rayon Mədəniyyət Mərkəzində rəsmi tədbir keçirilib. Tədbir iştirakçıları öncə mərkəzin foyesində ulu öndər Heydər Əliyevin iştirak etdiyi beynəlxalq toplantıları və görüşləri, dünya liderlərinin Onun haqqında dediyi sözləri əks etdirən və Ümummilli Lider haqqında yazılmış kitablardan ibarət sərgiyə baxıblar.

Tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi ilə başlanıb. Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Məruzə ilə tədbirdə çıxış edən Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev bildirib ki, müstəqil, suveren, qüdrətli və güclü Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Xalqımızın nicatının, ölkəmizin sürətli inkişafının, bugünkü qələbələrimizin məhz Ulu Öndərin adı ilə bağlı olduğunu vurğulayan icra başçısı qeyd edib ki, bütün bu nailiyyətlərin əsasını Heydər Əliyev qoyub, Azərbaycanımızın gələcək inkişafını təmin edib.

Qeyd edilib ki, illər ötdükcə Ümummilli Liderin siyasi kursunun və inkişaf strategiyasının nə qədər uzaqgörən olduğu bir daha təsdiqini tapır. Məhz bu siyasi kurs sayəsində ölkəmizdə müstəqilliyimizin milli-ideoloji əsasları möhkəmlənib, suveren dövlətçilik institutlarımız yaranaraq möhkəmlənib. Hər bir xalqın tarixi üçün ən önəmli məsələlərdən biri onun ərazi bütövlüyüdür. Bu baxımdan Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, qətiyyəti və uzaqgörənliyi ilə Vətən müharibəsində qazanılan şanlı Qələbəmiz Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Azərbaycan dünyada qalib, azad, güclü, milli maraqlarını ən yüksək səviyyədə qoruyan və prinsipial ölkə kimi tanınıb.

Daha sonra Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş üzvlərə vəsiqələr təqdim edilib.

Tədbir incəsənət ustalarının iştirakı ilə bədii-musiqili proqramla davam etdirilib.

**"YENİ BALAKƏN"**

# 9 May Faşizm üzərində Qələbənin 79-cu ildönümü günüdür



Bu gün (09.05.2024) 9 May Faşizm üzərində Qələbənin 79-cu ildönümü günüdür. "Böyük Vətən Müharibəsi" dediyimiz II Dünya Miharibəsində Azərbaycandan 660 min nəfər iştirak edib və böyük əksəriyyəti evinə sağ salamat qayıtmayıb. Azərbaycan diviziyaları Moskvadan döyüşərək, əraziləri azad edə-edə Berlinə çatıblar və Berlində qələbə bayrağını sancıblar. Azərbaycanın bu müharibədən 130 nəfər "Sovet İttifaqı Qəhrəmanı" var. II Dünya Miharibəsini Sovetlərin xeyrinə sonlandıran iki səbəbdən biri, Azərbaycan neftidir.

Hər il ölkəmizdə 9 May qeyd olunur. Cənab Prezident, 1941-1945 illər Böyük Vətən Müharibəsi iştirakçıkarı haqda sərəncamlar verir,mövcudları yenilənir. Bu həm də özünü Xalqın 1 nömrəli Xidmədçisi olduğunu söyləyən Rəhbərin yerlərdəki məmuriyyətə göstərdiyi istiqamətdir.

Balakənimdə də Qəbələdən bu tərəfə, zonada bir nəfər olan II Dünya Miharibəsinin iştirakçısı,Böyük Vətən Müharibəsi veteranı var, Perekrestov İosif Pavloviç.100-cü yaşındadır.

İndi İosifgildəyik. Bilirsiz kimlərlə? - II Qarabağ Müharibəsi Şəhidlərinin valideyinləri, ana ataları ilə.

**"YENİ BALAKƏN"**

# Rayon Mərkəzi Xəstəxanasında Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar tədbir keçirilib



Balakən RMX-nın rəhbərliyi, tibb və qeyri-tibb işçiləri Ulu Öndər Heydər Əliyevin dağüstü parkda ucaldılmış abidəsi önünə təzə-tər gül dəstələri oyaraq,onun əziz xatirəsini hörmət və ehtiramla andılar.

Gülgoymadan qayıdan kollektiv inzibati binanın böyük akt zalında öncə Dövlət Himnini səsləndirib,sonra Ulu Öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilər.

Tədbiri giriş sözü ilə direktor Dilbər Quliyeva açıb. SİHİ şura sədri Könül Mustafayeva isə məruzə ilə çıxış edərək, Heydər Əliyevin həyat və yaradıcılığından bəhs edib.

**"YENİ BALAKƏN"**

# "Narkomaniyaya və erkən nikaha yox deyək" adlı maarifləndirmə tədbiri keçirilib









Mayın 22-də Balakən rayonu R.Hədisov adına Yeni Şərif kənd tam orta məktəbində Balakən Rayon İcra Hakimiyyətinin və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Narkomaniyaya və erkən nikaha yox deyək" adlı maarifləndirmə tədbiri keçirilmişdir. Tədbiri giriş sözü ilə açan Balakən RİHB-nın birinci müavini, Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə rayon komissiyasının sədri Turan Dibirov Azərbaycan Respublikasi Prezidenti İlham Əliyevin 2019-cu il iyulun 22-də imzaladığı "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncamından irəli gələn vəzifələr haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib, müasir dövrdə ölkəmizdə narkomaniya ilə mübarizə sahəsində görülən işlərdən danışıb.Tədbirdə çıxış edən RPŞ-nın Qabaqçöl bölməsi üzrə rəisi Vilayət Allahverdiyev, Rayon Gənclər və İdman İdarəsinin rəisi Rasim Paçalov, DSX-nin Zaqatala üzrə hərbi hissəsinin əməliyyat-axtarış şöbəsinin rəisi Məqsəd Məhərrəmov, Balakən Rayonu üzrə Təhsil Sektorunun metodisti Fərhad Bazarov əsrin bəlasına çevrilmiş narkomaniyanın və erkən nikahın fəsadlarından, həmin hallara qarşı aparılan mübarizə tədbirlərindən bəhs ediblər. Diqqətə çatdırılıb ki, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Balakən rayon komissiyası və hüquq-mühafizə orqanları rayon ərazisində mütəmadi olaraq zərərli vərdişlər və erkən nikahın fəsadları barədə maarifləndirmə tədbirləri həyata keçirdir. Həmin tədbirlərin sağlam həyat tərzinin təbliğində, gənclərin sağlam ruhda tərbiyə olunmasında, onların zərərli vərdişlərdən uzaqlaşmasında rolu böyükdür.

Daha sonra çıxış edən Balakən RİHB Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Aynur Omarova və həkim Rəfail Ramazanov tədbir iştirakçılarına 3 böyük bəla olan alkoqolizm, siqaret çəkmək və narkomaniya barədə ətraflı məlumat verib, cəmiyyətin və gələcək nəsillərin sağlamlığını təhdid edən bu zərərli vərdişlər barədə iştirakçıları məlumatlandırıblar. Balakən RİHB yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın psixoloqu Arzu Əliyeva isə erkən nikah hallarının baş verməsi bir çox hallarda ailələrdə münaqişələrə, boşanmalara və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olduğunu diqqətə çatdırıb.

Sonda auditoriyanı maraqlandıran suallar cavablandırılıb.

**Turan DİBİROV,**
**Balakən Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Komissiyanın sədri**

# Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Seymur Mövlayev Balakəndə vətəndaşları qəbul edib, təsərrüfatlara baş çəkib



2023-cü ilin sentyabr ayından başlayaraq Kənd Təsərrüfatı Nazirliyinin vəzifəli şəxsləri tərəfindən bölgələrdə vətəndaş qəbulları keçirilir. Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədovun imzaladığı əmrə əsasən, Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) sədri Seymur Mövlayev mayın 14-də, Balakən Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Balakən rayonundan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb..Vətəndaş qəbulu başa çatdıqdan sonra yerli təsərrüfatlara baxış keçirilib. Əvvəlcə Seymur Mövlayev "Balacans Agro Food" MMC-də dövlət dəstəyi ilə qurulan meyvə və tərəvəz üçün qurutma kameraları, istehsal xəttinə baxış keçirib.Sonra Katex kəndində yerləşən sahibkar Əliyev Zeynala məxsus "Bal meyvə" müəssisəsinin fəaliyyəti, o cümlədən burada AKİA-nın dəstəyi ilə qurulan soyuducu anbar, müasir suvarma sistemləri ilə təchiz olunan meyvə bağları ilə tanış olub.Daha sonra AKİA sədri Katex kəndində "Balkhoorma" MMC-də olub. Müəssisənin hazırki fəaliyyəti, istehsal gücü ilə maraqlanıb. Dövlət tərəfindən göstərilən dəstəklə mexanizmləri barədə məlumat verib.

"YENİ BALAKƏN"

# Su ehtiyatlarından səmərəli istifadənin təmin olunması və alternativ su mənbələrinin yaradılması ilə bağlı görüş keçirilib



Mayın 21-də Balakəndə 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar təsdiq edilmiş "Tədbirlər Planı"na uyğun olaraq Balakəndə "Su ehtiyatlarından səmərəli istifadənin təmin olunması, alternativ su mənbələrinin yaradılması və həmin mənbələrdən istifadənin genişləndirilməsi" mövzusunda maarifləndirici görüş keçirildi.

Görüşdən Balakən Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Turan Dibirov, Dövlət Su Ehtiyatları Agentliyinin "Azərsu" ASC-nin şöbə müdiri Elmir Məmmədli, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin direktor müavini Əkbər Əsgərov, sektor müdiri Vəfa Məmmədova və digər aidiyyəti qurumların rəhbərləri iştirak etdilər.

Çıxışlarda bildirildi ki, su ehtiyatlarından səmərəli istifadə, alternativ su mənbələrinin yaradılması günümüzün aktual məsələlərindən biridir. Ölkəmizdə əhalinin keyfiyyətli içməli su ilə təmin edilməsi istiqamətində mühüm işlər görülməkdədir. Dövlət başçısının rəhbərliyi ilə son illərdə bununla bağlı ciddi layihələr reallaşdırılmışdır. Əhalinin içməli suya olan tələbatının ödənilməsi məsələsi Balakən rayonunda da diqqətdə saxlanılır.Qeyd olunub ki, Balakən rayonunun su mənbələri çay və yeraltı su mənbələrindən ibarətdir. Su ehtiyatlarından səmərəli istifadənin təmin olunması məqsədi ilə rayon sakinləri ilə mütəmadi olaraq maarifləndirici söhbətlər aparılır.

Tədbirin sonunda Balakən rayonunda alternativ su mənbələrinin yaradılmasının vacibliyi vurğulanıb, bununla bağlı bir sıra təkliflər səsləndirilərək, müzakirələr aparılıb.



"YENİ BALAKƏN"

# Balakən şəhər Uşaq İncəsənət Məktəbində tədbir keçirilib







16 may 2024 - cü il tarixində Balakən şəhər Uşaq İncəsənət Məktəbində "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyindəki musiqi, incəsənət, rəssamlıq, muğam,aşıq məktəb və mərkəzlərinə təhsilalanların qəbulu Qaydaları" haqqında Əmrə əsasən məktəbə şagird qəbulu ilə əlaqədar təbliğat-təşviqat işləri məqsədilə rayon İcra Hakimiyyətinin dəstəyi ilə tədbir keçirilmişdir.Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev,rayon təhsil sektorunun əməkdaşları, məktəb rəhbərləri,ümumrayon təhsil işçiləri iştirak etmişdir.Tədbirdə Uşaq İncəsənət Məktəbinin direktoru Arifə Tağıyeva çıxış edərək ictimaiyyəti 2024- 2025- ci tədris ilinə təhsilalanların 1-ci sinfə qəbul qaydalarında göstərilmiş yeniliklər haqda məlumatla tanış etmişdir. Tədbir geniş konsert proqramı ilə davam etmiş, tamaşaçılar tərəfindən hərarətlə qarşılanmışdır.

**Arifə TAĞIYEV,**
**Balakən şəhər Uşaq İncəsənət Məktəbinin direktoru**

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsitəşəbbüs irəli "Yaşıl gələcək naminə" adlı layihə



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik İli" elan edilmişdir. "Yaşıl dünya naminə həmrəylik İli" çərçivəsində Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi təşəbbüs irəli sürərək ölkə ərazisində "Yaşıl gələcək naminə" adlı layihənin icrasına başlamışdır. Layihə 10 may 2024-cü il tarixdə DQİDK-nin Zaqatala bölgəsi üzrə şöbənin əhatə etdiyi Balakən rayonu ərazisində fəaliyyət göstərən dini icmalarda və məscidlərdə də həyata keçirilmişdir. Balakən rayonu üzrə 28 məsciddə 267 nəfərin iştirakı ilə məscidlərin daxilində, həyətyanı sahəsində və ətraf ərazizidə abadlıq və təmizlik işləri görülmüş, ağacların dibi bellənmiş, ağacların gövdəsi əhənglə ağardılmış, həyətlər və ətraf ərazi otdan, kol-kosdan və məişət tullantılarından təmizlənmişdir. Keçirilmiş abadlıq və təmizlik aksiyasında DQİDK-nin Zaqatala bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi Elməddin Atakişiyev və məsləhətçi Ruslan Əfəndiyev, dindarlar, gənclər, şəhər, qəsəbə və kənd ictimaiyyətinin nümayəndələri iştirak etdilər.

**Elməddin ATAKİŞİYEV,**
**DQİDK-nin Zaqatala bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi**

# Balakən rayonunda tibbi aksiya keçirilib



Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin təşəbbüsü və Balakən Rayon Mərkəzi Xəstəxanasının təşkilatçılığı ilə Dəmiryol Səyyar Klinikası tərəfindən Balakən rayonunda tibbi aksiya keçirilib.

Tibbi aksiyanın keçirilməsində əsas məqsəd müraciət edənlərin problemlərinin müəyyənləşdirilməsi və aşkarlanmış xəstəliklərin həlli yolunu tapmaqda kömək göstərilməsi olub.



Aparılan müayinələr əsasında göz xəstəlikləri ilə bağlı ümumi monitorinqlər aparılır və əldə edilən nəticələr müzakirə edilir. Ciddi problemlərlə üzləşən və əməliyyat tələb olunan pasiyentlərin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə gəlməsinə şərait yaradılıb.

Aksiyada şəhid ailələri və qazilər də daxil olmaqla, ümumilikdə 143 nəfər müayinədən keçirilib.

**Səmra SULTANOVA,**
**İctimaiyyətlə Əlaqələr üzrə mütəxəssis**



# Balakən şəhər Nizami adına şəhər 1 saylı tam orta məktəbin 2a rus sinfində yol hərəkəti qaydaları dərsi



Dərsin keyfiyyəti, onu necə, harda, hansı vasitələrlə keçməyindən asılı olaraq dəyişir.

Balakən şəhər Nizami adına şəhər 1 saylı tam orta məktəbin 2a rus sinfində, bir dərsin necə keçildiyini müşahidə etdim. Dərs, yol hərəkəti qaydaları idi. Sinif rəhbəri Esmira Firudin qızı, uşaqların bu dərsi qavramaları üçün bütün vasitələrdən istifadə etdi. Dərsin praktikasına dəstək üçün yol polisi əməkdaşları da qatıldılar. Belə canlı dərslər həm dərs, həm də gözəl xatirə olaraq $2^a$ rus sinfinin şagirdlərinin yaddaşında qalacaq.

**Ramazan ABALOV**

# Kümçü ilə müsahibə



Bu günkü müsahibim kümçü, 1973-cü il təvəllüdlü Vaqif Hümbətov Talalar kənd sakini, I Qarabağ müharibəsinin qazisi, veteranıdır.

**- Vaqif, necə oldu I Qarabağ müharibəsinə qatıldın?**

-Kənddə, evdə idim. 1992-ci il fevralın sonuna yaxın televiziyada rəhmətlik Çingiz Mustafayevin çəkdiyi videoları gördüm. O video faktlarda erməni rus birləşmələrinin xalqımızın başına gətirdiyi müsibəti, Xocalı adlı bir şəhərimizdə törətdiyi vəhşiliyi,soyrımı gördükdə dəhşətə gəldim. Mən bu vəziyyəti sakitcə seyr edə bilmədim, elə bir neçə gün sonra könüllü olaraq cəbhəyə yollandım, düşmənlərimizin başına od ələməyə. Dörd il iki ay vuruşdum düşmənlə, Vətənim üçün Şəhid olmaya çıxdığım yoldan qazi olaraq döndüm.

**-Bəs evə, kəndə qayıtdıqdan sonra nəylə məşğul oldun?**

-Bir az müalicə olunduqdan sonra müxtəlif xırda-para işlərlə olurdum. Sonra kənd təsərüffatın baramaçılıq sahəsiylə maraqlandım və bu sahəylə məşğul olmağa başladım. Artıq 9-cu ildir ki, kümçüyəm.

**-Nəticələr necədir?**

-Keçən il 256 kq barama təhvil vermişəm. 2019-ci ildə 332 kq, 2018-ci ildə 333 kq, 400 kq barama məhsulu satdığım illər də olub.

**- Bu il neçə kq proqnozlaşdırırsız?**

-Bu il 5 qutu ipək qurdu götürmüşəm və inşallah 250 kq barama məhsulu əldə edəcəyəm.

**-Artıq 9 ildir bu sahədəsiz, baramaçılığınızın gələcəyini necə düşünür, nələri planlayır, prespektivdə nələri etməyi düşünürsüz?**

-Bəli,baramaçılığı inkişaf etdirsəm, düzgün planlı işimi qursam, maddi texniki bazamı yaratsam, hər ilin gəlirindən biraz gələn il üçün sərmaya ayırsam, kənd təsərüffatı sahələri üçün ayrılan güzəştli kreditlərdən istifadə edərək sərmayəni çoxaldıb yatırım etsəm bir gün öz fabrikam üçün barama istehsal edən, daha barama satan yox alan tərəf ola biıərəm. Çəkil ağacları əkirəm, bağlar salıram. Daha böyük məkənda, daha çox işçi qüvvəsi ilə tonlarla ölçülə biləcək miqdarda barama istehsalına nail olmaq istəyirəm. İnşallah.

**-Baramaçılığı insanlarımıza tövsiyyə edərdinmi?**

-Əlbəttə. Cəmi 28-30 günlük işi var.Nə əziyyəti,xərci-xəcaləti varsa elə bu bir ayın içərisindədir. Çox gözəl sahədir. İşsizliyin azalmasına töhvədir. Kiçik çapdakı barama gəliri belə, orta ölçüdə bir sıra problemlərin həllidir.

**-Sonda nə demək istərdin?**

-Mən Dövlətimizə, onun Rəhbərinə təşəkkür edirəm. Bizim üçün belə şərait, imkan yaradıb hərtərəfli olaraq. Barama qurdunu, çəkil tinglərini pulsuz verir, güzəştli kreditlər ayırır, məhsulumuzun yaxşı qiymətə satılmasını təmin edir. Mənim bu günkü gün kümçü olmağımda əməyi keçən hər kəsə təşəkkür edirəm. Sizə, Balakənimin yerli, tək mətbu orqanı olan "Yeni Balakən" qəzetinə xüsusi təşəkkürümü bildirirəm, bizə diqqətiniz üçün..

-Qarşılıqlıdır təşəkkürlər. Biz də öz növbəmizdə bu gözəl işdə sənə uğurlar, hədəfinə qısa zamanda çatmağını arzu edirik.

**Ramazan ABAL**

# Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə məktəblilərin stolüstü tennis üzrə Balakən birinciliyi keçirildi



Balakən rayon Olimpiya İdman Kompleksində ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü münasibətilə məktəblilərin stolüstü tennis üzrə Balakən birinciliyi keçirildi. Birincilik uğrunda 10 məktəkdən içştirakçılar yarışdılar. Qaliblər diplomla təltif olunaraq mükafatlandırıldılar.

# Mahamalar sakinləri abad yol istəyirlər



Balakən rayonu günü gündən gözəlləşir, abadlaşır. Rayonun bütün şəhər, qəsəbə və kəndləri yüz faiz qazlaşıb. Küçələri də artıq asfaltlaşdırılıb qurtarmaq üzrədir. Rayonun ən ucqar kəndlərinin, obalarının küçələrinə belə asfalt örtüyü çəkilib. Elə uzaq nöqtələr var ki, ordakı asfalt küçədən sutka ərzində iki adam ya keçər ya da naxır keçər. Yəni, əgər tabiri caiz isə heyvanların ayaqları altına da asfalt salınıb.

Amma bir kənd, o kəndin əsas yolu var ki, gözdən, könüldən uzaq qalıb. Balakən şəhərinə bitişik Mahamalar kəndinin düz ortasından, Mahamalar kənd mərkəzi ilə Gərəkli kənd mərkəzini birləşdirən,"Sumbat oba" adlanan ərazidən keçən lojistik, stratejik əhəmiyyətə malik yol diqqətdən kənarda qalıb. Bu küçənin üst tərəfindəki Mahamalar məktəbinə gedən küçə asfaltlaşıb, alt tərəfindəki küçə də asfaltlaşıb, ortada olan bu əsas küçə isə qalıb,unudulmuş yetim kimi. Kənd əhalisinin yarısına yaxın bir nüfusun yaşadığı, çox sayda evlərinin olduğu küçənin yol problemi, ordakı sakinlərin asfalt istəyindən ibarətdir. Onlar da istəyirlər yayda tozdan, torpaqdan, daşdan, qumdan; yaz, payız, qışda palçıqdan, gölməçələrdən, pintiçilikdən canlarını qurtarsınlar, təmizliyə, rahatçılığa qovuşsunlar. Səhərləri həyət qapısını açıb küçəyə addım atanda, təmiz səliqəli asfalt yolu görüb günə müsbət başlasınlar, ömürlərinin o günü gözəl yoldan başlasın.. Məncə elə də çox bir şey istəmirlər, sadəcə öz doğma küçəsinə asfalt örtüyünün çəkilməsini istəyirlər.

Kənd əhalisinin,küçə sakinlərinin "Yeni Balakən" qəzetinə ünvanladıqları məktubla bu haqlı tələbi, kütləvi informasiya, media vasitəsilə hökümətin və onun aidiyyatı qurumlarının diqqətinə, təmin və icra etməkçün çatdırmağımızı, bu işdə onlara dəstək olmağımızı xahiş etdilər.Kənd sakinləri hökümətdən asfalt tələb edirlər.

**P.S.**Bu iş özünü idarə etmə orqanı vasitəsilə deyil, mərkəzi vəya yerli idarəetmının gücüylə, büdcəsiylə mümkündür. Bələdiyyə onsuzda əlindən gələni,imknı daxilində olanı edir: Hər il yola qreyder salır, qum, çınqıl tökür. Bütün bunların ömrü bir yağışa baxar. Sanki təbiət də zəif işləri qəbul etmir, razılaşmır..

**"YENİ BALAKƏN"**

# Mingəçevir Dövlət Dram Teatrı "Tıq-tıq xanım" və "Subaylarınızdan görəsiniz" adlı tamaşalaıyla Balakənli tamaşaçıların qonağı oldu




Balakən Mədəniyyət Mərkəzində, Mingəçevir Dövlət Dram Teatrı " Tıq-tıq xanım" və "Subaylarınızdan görəsiniz" adlı tamaşalaıyla Balakənli tamaşaçıların qonağı oldu. Teatrın rəhbəri İntiqam Soltan,quruluşçu rejissor Valeh Kərimovdur. (Respublikanın Xalq Artisti)

**"YENİ BALAKƏN"**

# ETİBARSIZ SAYILIR

Ukalayev Mustafa Rəşad oğlunun adına verilmiş SX-0643064 nömrəli hərbi bilet **itdiyi üçün etibarsız sayılır**.


MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO13501000000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100